فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال سوم ، شماره دهم ، زمستان ۱۴۰۴
“Studies on Azerbaijan and Turk's History” Specialized Journal, year 03, issue 10, Winter 2026
“Azərbaycan və Türk Tarixi Araşdirmalar” ixtisaslaşdirilmiş jurnal, il 03, nömrə 10, Qiş 2026
Üçaylık "Azerbaycan ve Türk tarihi araştırmalar" dergisi, yıl 03, sayı 10, Kış 2026

# مناسبات جمعیت اتحاد و ترقی عثمانی با انقلاب مشروطیت آذربایجان ( ۱۹۰۹ ـ ۱۹۰۵ ) در مثلث باکو، تبریز، استانبول

**دکتر توحید ملک زاده دیلمقانی**

**ایمیل:**

tohidmelikzade@yahoo.com

**وابستگی:**

محقق تاریخ و فرهنگ آذربایجان- عضو هیئت علمی دانشگاه

**چکیده:**

از آغاز قرن بیستم، با وقوع تحولات عمیق سیاسی، اجتماعی و مدنی در قطب‌های سیاسی خاورمیانه، سرنوشت مردمان ساکن در این جغرافیا نیز دستخوش تغییر شد. فریادهای این ملت‌ها که در جریان افکار نوین برمی‌خاست، چون زنجیری از مردمی به مردم دیگر می رسد و نغمه‌های آزادی از ملتی به ملتی دیگر جهیدن گرفت. جنبش آزادی‌خواهی که از سال ۱۹۰۵ به بعد در روسیه روی داد، سرآغاز این حرکت آزادی‌خواهانه محسوب می‌شود. این جنبش آزادی‌خواهانه که بعدها به قاجار و عثمانی سرایت کرد، در جهت محدود ساختن قدرت‌های بی‌حد و حصر حاکمان و حرکت در مسیر مشارکت مردم در اداره کشور گام برداشت. آذربایجان نیز به دلیل همسایگی با روسیه و عثمانی، از این تلاطم‌های سیاسی و اجتماعی دور نماند. طبقه نخبه و بازرگان باکو، تفلیس و جنوب که با عثمانی ارتباط نزدیک داشتند، به تدریج اندیشه‌های سوسیالیستی روسیه و تفکر اتحاد و ترقی (ترک‌گرایان) عثمانی را به آذربایجانی‌ها منتقل کردند. در این مقاله، تأثیر فرقه اتحاد و ترقی عثمانی بر جنبش مشروطه آذربایجان مورد بحث قرار می‌گیرد.

**کلمات کلیدی:** آذربایجان، انقلاب مشروطه، جمعیت اتحاد و ترقی، عثمانی

**استناد (آپا):**

ملک زاده دیلمقانی، ت. مناسبات جمعیت اتحاد و ترقی عثمانی با انقلاب مشروطیت آذربایجان ( ۱۹۰۹ ـ ۱۹۰۵ ) در مثلث باکو، تبریز، استانبول. ارومیه: فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال ۰۳، شماره ۱۰، تابستان ۱۴۰۵. ۸۶۹۰-۳۰۴۱ شاپا

**Dr. Tohid Malekzadeh**

**Email:**

tohidmelikzade@yahoo.com

**Affiliation:**

Researcher of Azerbaijani History and Culture

University Faculty Member

# The Relations of the Ottoman Committee of Union and Progress Operating in the Triangle of Baku, Tabriz, Istanbul and the Azerbaijani Constitutional Revolution (1905-1909)

**Abstract:**

From the beginning of the twentieth century, with the occurrence of deep political, social, and civil upheavals in the political poles of the Middle East, the destinies of the peoples living in this geography began to change. The cries of these peoples, rising in the flow of new thoughts, began to circulate from nation to nation like a chain, and the melodies of freedom began to leap from one people to another. The freedom movement that took place in Russia starting from 1905 is considered the beginning of this freedom movement. This freedom movement, which later spread to the Qajars and Ottomans, moved in the direction of limiting the unlimited powers of the ruling authority and ensuring the participation of the people in governing the country. Because Azerbaijan was a neighbor to Russia and the Ottoman Empire, it did not remain aloof from these political and social upheavals. The Baku, Tiflis, and southern elite and merchant class, who were in close contact with the Ottomans, gradually brought the ideas of the Russian Socialists and the Ottoman Committee of Union and Progress (Turkists) to the Azerbaijanis. In this article, we will discuss the influence of the Ottoman Committee of Union and Progress on the Azerbaijani Constitutional Movement.

**Key words:** Azerbaijan, Constitutional Revolution, Committee of Union and Progress, Ottoman

**CITATION (APA):**

Malekzadeh, T. The Relations of the Ottoman Committee of Union and Progress Operating in the Triangle of Baku, Tabriz, Istanbul and the Azerbaijani Constitutional Revolution (1905-1909). Urmia: "Studies on Azerbaijan and Turk's history" Specialized Journal, year 03, number 10, Summer 2026, ISSN: 3041-8690.

فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال سوم ، شماره دهم ، زمستان ۱۴۰۴
“Studies on Azerbaijan and Turk's History” Specialized Journal, year 03, issue 10, Winter 2026
“Azərbaycan və Türk Tarixi Araşdirmalar” ixtisaslaşdirilmiş jurnal, il 03, nömrə 10, Qiş 2026
Üçaylık "Azerbaycan ve Türk tarihi araştırmalar" dergisi, yıl 03, sayı 10, Kış 2026

**Dr. Tohid Məlikzadə**

**E-poçt:**

tohidmelikzade@yahoo.com

**Mənsubiyyət:**

Azərbaycan Tarixi və Mədəniyyəti tədqiqatçısı,

Universitetin Akademik Heyət üzvü

# Bakı, Təbriz, İstanbul üçbucağında fəaliyyət göstərən Osmanlı İttihad və Tərəqqi Cəmiyyəti və Azərbaycan Məşrutə İnqilabı (1905-1909) əlaqələri

**Xülasə:**

XX əsrin əvvəllərindən etibarən Yaxın Şərq siyasi qütblərində dərin siyasi, sosial və mülki çalxantıların baş verməsi ilə bu coğrafiyada yaşayan xalqların taleləri də dəyişməyə başladı. Bu xalqların yeni düşüncələr axınında yüksələn harayları zəncir kimi xalqdan-xalqa dolaşıb, azadlıq nəğmələri bir xalqdan başqa xalqa sıçramağa başladı. 1905-ci ildən etibarən Rusiyada baş verən azadlıq hərəkatı bu hərəkatın başlanğıcı sayılır. Daha sonra Qacarlara və Osmanlılara sıçrayan bu azadlıq hərəkatı hakim gücün sərhədsiz qüvvələrinə sərhəd gətirib məmləkəti idarə etməkdə xalqın da iştirak etməsi istiqamətində hərəkət etdi. Azərbaycan isə Rusiya və Osmanlı ilə qonşu olduğu üçün bu siyasi və sosial çalxantılardan kənarda qalmadı. Bakı, Tiflis və Osmanlı ilə sıx əlaqədə olan cənublu elit və tacir təbəqəsi, tədricən Rusiyadan sosialist və Osmanlıdan türkçü İttihad və Tərəqqi Cəmiyyəti fikrini azərbaycanlılara gətirdilər. Bu məqalədə Osmanlı İttihad və Tərəqqi Firqəsinin Azərbaycan Məşrutə Hərəkatına olan təsirindən danışacağıq.

**Açar sözlər:** Azərbaycan, Məşrutə İnqilabı, İttihad və Tərəqqi Cəmiyyəti, Osmanlı

**CITATION (APA):**

Məlikzadə, T. Bakı, Təbriz, İstanbul üçbucağında fəaliyyət göstərən Osmanlı İttihad və Tərəqqi Cəmiyyəti və Azərbaycan Məşrutə İnqilabı (1905-1909) əlaqələri. Urmiya: “Azərbaycan və Türk tarixi araşdırmalar” İxtisaslaşdırılmış Jurnal, il 03, nömrə 08, Yay 2025, ISSN: 3041-8690.

فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال سوم ، شماره دهم ، زمستان ۱۴۰۴
"Studies on Azerbaijan and Turk's History" Specialized Journal, year 03, issue 10, Winter 2026
"Azərbaycan və Türk Tarixi Araşdirmalar" ixtisaslaşdirilmiş jurnal, il 03, nömrə 10, Qiş 2026
Üçaylık "Azerbaycan ve Türk tarihi araştırmalar" dergisi, yıl 03, sayı 10, Kış 2026

**Dr. Tohhid Melikzade**

**E-posta:**

tohidmelikzade@yahoo.com

**Üyelik:**

Azerbaycan Tarihi ve Kültürü Araştırmacısı

# Bakü, Tebriz, İstanbul Üçgeninde Faaliyet Gösteren Osmanlı İttihat ve Terakki Cemiyeti ve Azerbaycan Meşrutiyet Devrimi (1905-1909) İlişkileri.

**Özet:**

Özet: XX. yüzyılın başlarından itibaren Ortadoğu siyasi kutuplarında derin siyasi, sosyal ve sivil çalkantıların meydana gelmesiyle bu coğrafyada yaşayan halkların yazgıları da değişmeye başladı. Bu halkların yeni düşünce akımlarında yükselen çığlıkları bir zincir gibi halktan halka dolaşarak, özgürlük ezgileri bir halktan diğer bir halka sıçramaya başladı. 1905'ten itibaren Rusya'da meydana gelen özgürlük hareketi, bu özgürlük hareketinin başlangıcı sayılır. Daha sonra Kaçar ve Osmanlılara sıçrayan bu özgürlük hareketi, yönetim gücünün sınırsız kuvvetlerine sınır getirip ülkeyi yönetmekte halkın da katılım göstermesi istikametinde ilerledi. Azerbaycan ise Rusya ve Osmanlı'ya komşu olduğu için bu siyasi ve sosyal çalkantıların dışında kalmadı. Bakü, Tiflis ve Osmanlı'yla sıkı ilişkide olan güneyli elit ve tüccar sınıfı, tedricen Rusya'dan sosyalist ve Osmanlı'dan Türkçü İttihat ve Terakki Cemiyeti fikrini Azerbaycanlılara getirdiler. Bu makalede Osmanlı İttihat ve Terakki Fırkası'nın Azerbaycan Meşrutiyet Hareketi'ndeki etkisinden bahsedeceğiz.

**Anahtar Kelimeler:** Azerbaycan, Meşrutiyet Devrimi, İttihat ve Terakki Cemiyeti, Osmanlı

**CITATION (APA):**

Melikzade, T. Bakü, Tebriz, İstanbul Üçgeninde Faaliyet Gösteren Osmanlı İttihat ve Terakki Cemiyeti ve Azerbaycan Meşrutiyet Devrimi (1905-1909) İlişkileri. Urmiye: Üç Aylık "Azerbaycan ve Türkiye Tarihi Üzerine Araştırmalar" Uzmanlık Dergi, yıl 03, sayı 08, Yaz 2025, ISSN: 3041-8690.

فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال سوم ، شماره دهم ، زمستان ۱۴۰۴
"Studies on Azerbaijan and Turk's History" Specialized Journal, year 03, issue 10, Winter 2026
"Azərbaycan və Türk Tarixi Araşdirmalar" ixtisaslaşdirilmiş jurnal, il 03, nömrə 10, Qiş 2026
Üçaylık "Azerbaycan ve Türk tarihi araştırmalar" dergisi, yıl 03, sayı 10, Kış 2026

# باکی، تبریز، استانبول اؤچ گنیده فعالیت ائدن عثمانلی اتحاد و ترقی جمعیتی و آذربایجان مشروطیت انقلابی

دکتر توحید ملک زاده دیلمقانی

ایمیل:

tohidmelikzade@yahoo.com

وابستگی:

محقق تاریخ و فرهنگ آذربایجان- عضو هیئت علمی دانشگاه

**چکیده:**

**خلاصه:** بیرمینجی عصرین باشلاریندان اعتباراً اورتادوغو سیاسی قوطب لاریندا ده رین سیاسی ، اجتماعی و مدنی چالخانتی لارین باش وئرمه سیله بو جغرافیادا یاشایان خالق لارین طالع لری ده  ده ییشمیه باشلادی. بو خالق لارین یئنی دؤشونجه لر آخیمیندا یؤکسلن هارای لاری زنجیر کیمی خالقدان خالقا دوْلاشیب آزادلیق نغمه لریی بیرخالقدان باشقا خالقا سیچراماپا باشلادی . ۱۹۰۵ ده ن اعتباراً روسیادا باش وئره ن آزادلیق حرکاتی بو آزادلیق حرکاتین باشلانیشی ساییلیر. داها سونرا قاجار و عثمانلی لارا سیچرایان بو آزادلیق حرکات ، حاکیم گؤجون سینیرسیز قوه لرینه سینیر گتیریب مملکتی اداره ائتمک ده خالقین دا اشتراک ائتمه سی استقامتینده حرکت ائتدی.

آذربایجان ایسه روسیا و عثمانلی یلا قونشو اوْلدوغو اؤچون بو سیاسی و اجتماعی چالخانتی لاردان کناردا قالمادی. باکی، تفلیس و عثمانلی یلا سیخ علاقه ده اولان جنوبلو ائلیت و تاجیر طبقه، سیرایلا اوْ روسیه ده ن سوسیالیست و عثمانلی دان تورکچو اتحاد ـ ترقی جمعیتی فیکیرینی آذربایجانلیلارا گتیردیلر. بو مقاله ده عثمانلی اتحاد و ترقی فرقه سی نین اذربایجان مشوطه حرکاتی ندا اولان تاثیریندن دانیشاجاییق.

**کلمات کلیدی:**

آذربایجان، مشروطه انقلابی، اتحاد و ترقی جمعیتی، عثمانلی

## استناد (آپا):

ملک زاده دیلمقانی، ت. باکی، تبریز، استانبول اؤچ گنیده فعالیت ائدن عثمانلی اتحاد و ترقی جمعیتی و آذربایجان مشروطیت انقلابی ( ۱۹۰۹ ـ ۱۹۰۵ ) علاقه لری . ارومیه: فصلنامه تخصصی "مطالعات تاریخ آذربایجان و ترک" سال ۰۳، شماره ۱۰، تابستان ۱۴۰۵. ۸۶۹۰-۳۰۴۱ شاپا

## عثمانلی دا آذربایجانلی لارین ایسکانی و سعادت انجومنی

عثمانلی دا آذربایجانلی لارین ایسکانی و اورادا یاشاماقلاری چوخ اسکی یه قاییدیر. ۱۶ اینجی عصرین باشلاریندان اعتباراً سلطان سلیم طرفینده ن تبریزین ایشغالی نتیجه سینده بیر چوخ آذربایجانلی صنعتکار عثمانلی یا کؤچورولدو . داها سونرا قاجار ــ عثمانلی علاقه لری یاخشی لاشینجا تیجارتی چوخ سئوه ن و اونونلا ماراقلانان آذربایجانلی لار غرب دروازاسی ساییلان استانبولا گلیب چاتدیلار . ۱۹۰۰ لارا گلینجه استانبولدا یاشایان آذربایجانلی لارین نفوس سایسی اوْن مینی آشمیشدی[1]. بو آذربایجانلی لار، تیجارتله بیرلیکده آذربایجانین وضعیتیله ده ماراقلانیردیلار. اوْ زامان لار آذربایجان لی لار عثمانلی دا باش وئرن سیاسی آزادلیق لاردان یارارلاناراق قاجار ممالک محروسه سی و آنا یوردلاری آذربایجان لا باغلی، ایجلاس لار دا کئچیریردیلر. زامان ایره لی له دیکجه اوْنلار، فعالیت لرینی دوزه نله مک اؤچون عثمانلی دا فیکیر داشلارینی بیر یئره ییغاراق اوْجاق لار قوروب آنا وطن لرینه خیدمت ده ن هئچ نه اسیر گه مه دیلر. استانبول دا یاشایان آذربایجان لی لارین قوردوغو اوْجاق « سعادت انجومنی » آدلانیردی. قایناق لارا گؤره بو انجومنین قادینلار شعبه سی ده فعالیت لئدیردی[2] . چوخ سیستماتیک چالیشان بو انجومنلر آذربایجانین سیخینتیلی گونلرینده خالقیمیزین پیس وضعیتی نی دؤنیا مئدیاسینا چاتدیرماغا موفق اوْلدولار[3]. سعادت انجومنی اؤزونو، آوروپادا آذربایجان ایالت انجومن نماینده سی ائله جه ده منحل اوْلموش ایران پارلامنتوسو اوْلاراق آپاریردی. بیلیندییی کیمی تهران دا پارلامنین توپا باغلاندیغیندان سونرا آذربایجان ایالت انجومنی اؤزونو گئچیجی « آذربایجان دئولتی » اوْلاراق اعلان ائتمیشدی[4]. بو انجومنین فعالیت لریله ایستانبو دا آذربایجانلی لار اؤچون مالی کامپانیالار دا ترتیب وئریلدی و لله گلن گلیرلر تبریزه گؤنده ریلدی[5] . قئید ائتمک لازیمدیرکی ایران خاقلاریندان یالنیز عرب لید ری شیخ خزعل آذربایجانلی لارا مادی کؤمک ائتمیشدیر[6].

سونرالار آذربایجان وضعیتی گرگینله شینجه سعادت انجومنی نی یئنی دؤزه نه سالماق آماجی ایله نجف عالیم لری آذربایجانلی حاج شیخ اسدالله ممقانی نی سعادت انجومنی نه صدر اوْلاراق گؤنده ردیلر[7]. اوْ ۲۶ شوال ۱۳۲۶ ( ۲۱ نوامبر ۱۹۰۸ ) دا استانبولا گلیب چاتدی.

---

[1] تقی زاده، سید حسن، تاریخ مشروطیت ایران، انتشارات فردوس تهران، ص ۲۲۲ و خان ملک ساسانی بو رقمی ۱۶۰۰ نفر اولاراق قئید ائدیر. باخ: خان ملک ساسانی ، یادبودهای سفارت استانبول، انتشارات بابک، ۱۳۵۴ تهران، ص ۹۴

[2] آفاری، زانت، انجمن های نیمه سری زنان در نهضت مشروطیت، ترجمه دکتر جواد یوسفیان، تهران ۱۳۷۷، ص ۲۵

[3] روزنامه ناله ملت، نمره ۳۹، ۲۰ محرم ۱۳۲۷، ص۴

[4] آبراهامیان، یرواند، ایران بین دو انقلاب، ترجمه احمد گل محمدی و محمد ابراهیم فتاحی، نشر نی تهران ۱۳۷۷ ص ۲۲۳

[5] امیر خیزی، اسماعیل، قیام آذربایجان و ستارخان، انتشارات آگاه تهران، ۱۳۷۹، ص۱۹۲

[6] کسروی ، تاریخ مشروطیت ایران، ص۷۹۶

[7] عینی قایناق، ص۱۹۴

سعادت انجومنی و اتحاد ترقی جمعیتی ایله امکداشلیق لاری

سعادت انجومنی عثمانلی دا اوْزامان گیزلیجه فعالیت ائده ن داها سونرا اقتدارا گلن ، تورکچولویو و معاصیر لشمه یی هدفله ین اتحاد ـــ ترقی جمعیتیله ده یاخین دان علاقه ساخلامیشدی . بو ایسه عثمانلی ضیالی لارین نین عثمانلی خاریجینده یاشایان تورکلرین آنلامیش اولدوقلاریندان مئیدانا گلمیشدیر[۸]. داها اؤنجه آذربایجانلی لاری عجم خیطاب ائده ن عثمانلی ضیالی لاری بو سفر آذربایجانلی لاری « تورک قارداش » لاریمیز اوْلاراق خیطاب ائدیردیلر. بو ایستی مناسیبت ایسه ایکی قارداش خالقین داها یاخین لاشماسینا سبب اوْلدو. نتیجه ده عثمانلی اتحاد ترقی جمعیتی آذربایجان دا باش وئرن حادیثه لرله داها آرتیق ماراقلانمایا باشلادی. ۱ شعبان ۱۳۲۵ ( ۹ سپتامبر ۱۹۰۷ ) تبریزده چاپ اوْلان « انجومن » قزئتی بو جمعیتین آذربایجان خالق حرکاتینا دایير مثبت مناسبت لرینی و حتی حمایه بیانیه سینی نشر ائتدی[۹].

داها سونرا بو جمعیت ستارخان و سايیر مجاهیدلره افتخار مدالیاسی گؤنده ردی. بو ایش روسلاری ناراحات ائتمیشدی[۱۰]. سن پترزبورگ دان گلن بیر مکتوبا گؤره روسلار ادعا ائتمیش لر کی عثمانلی اتحاد چی لار آذربایجان لی لاری روس علیهینه تحریک ائتمه یه مشغول دورلار[۱۱]. روسلارین شیددتلی اعتراض نتیجه سینده عثمانلی دؤولتی اتحاد چی لارین آذربایجان دا هر جور مداخله سینی رّد ائتدی. عثمانلی لارین ۲۶ نوامبر ۱۹۰۸ ده رسمی آچیقلادیغی بیانیه ده ستارخانا گؤنده ریلن مدالیالاری سعادت انجومنی طرفینده ن گؤنده ریلمه سینی بیلدیردی[۱۲]. بوایسه بو ایکی قورولوشون سیخ علاقه لرینده ن خبر وئریردی.

ایستانبول دا سعادت انجومنی اتحاد چی لارلا بیرلیکده استبداد ا قارشی اولدوقلارینی سویله مک آماجی ایله ایران سفیرلی یینی قارشی سیندا نماییش و میتینگلر ده کئچیردیلر[۱۳].

اتحاد چی لارین یاردیمی ایلا ایستانبول دا چاپ اوْلان " صاباح" قزئته سی آذربایجان حرکاتی ندان داواملی یازیلار یازاراق تبریز غارت زده لرینه کؤمک کامپانیاسی ترتیب ائتمیشدی . آذربایجان انجومن اورقانی سايیلان" انجومن" قزئتی ایسه خالقین پیسخولوژی سینی یؤکسلتمک اؤچون بو خبرلری دواملی چاپ ائتمک له مشغولویدو[۱۴].

---

[۸] Swietochowski, Tadeusz. Müslüman Cemaatten Ulusal Kimliğe Rus Azerbaycan'ı (1905-1920). İstanbul, 1988, s. 103.

[۹] انجمن، سای ۱۳۱، اول شعبان ۱۳۲۵و ناله ملت سای ۱۹، ۲ رمضان ۱۳۲۶ ص: ۳

[۱۰] معاصر ، حسن، تاریخ استقرار مشروطیت در ایران مستخرجه از روی اسناد وزارت امور خارجه انگلستان، تهران ۱۳۴۶، ص ۹۱۰

[۱۱] همان، ص۹۰۶

[۱۲] همان، ص۹۱۲

[۱۳] همان، ص۷۷۳

[۱۴] انجمن ، سای ۳۵، دی حجه ۱۳۲۶ص۴و امیر خیزیّ ۲۸۵

## آذربایجانلی سعید سلماسی و اتحاد ترقی جمعیتی

۱۹۰۷ لرده ن اعتباراً عثمانلی لار محمد علی شاهلا سینیر آنلاشماسی نتیجه سینده آذربایجان غرب منطقه لرینی ایشغال ائتمیشلر. یایقین بیر فیکره گؤره قاجار و عثمانلی سلطان لاری آذربایجان لی لاری آزادلیق دان واز گئچمه لری اؤچون تضییق آلتدا قویماق فیکرینده یدیلر[۱۵]. گیزلیجه فعالیت ائده ن اتحاد ــ ترقی جمعیتی پاریس ده ن یاییملادیغی بیر بیانیه ده عثمانلی دئولتی نین آذربایجانی اشغال ائتمه سینده ن اؤز ناراحاتلیغینی بیلدیرمیشدی[۱۶]. سرحدی اشغال ائده ن عثمانلی اوردوسو ایچینده تصادفی اوْلاراق اتحاد لارین اؤست دؤزئیده ضابیط لری اوْ جمله ده ن انور پاشانین عمی سی خلیل پاشا دا واریدی . او آذربایجان وضعییتیله یاخین دان تانیش ایدی. میرزا سعید سلماسی خلیل پاشایلا سیخ علاقه ده اولان آذربایجانلی مجاهید، ایدی[۱۷]. باکی ـــ تبریز ـــ استانبول اؤچ گنینده فعالیت ائده ن میرزا سعید سلماسی ۱۸۸۹ دا آذربایجانین سلماس شهرینده آنادان اوْلموشدور. وارلی بیر عایله نین اوْشاغی اوْلان "آغابالا" داها سونرا "سعید" آدینی سئچمیشدیر. گنج چاغلاریندا باکی ـ تفلیس، استانبول و روسیایا سفر ائتمیش دیر. بو سفرلرده آزادلیق نغمه لرینی ده رین ده ن حیس ائتمیش و بیر اینقلابچی کیمی وطنه دؤنموشدور. ۱۹ یاشیندا رسماً اتحاد ترقی جمعیتی عضو اوْلموشدور[۱۸]. سعید سلماسی نین خواهیشینجه اتحادچی لارین تانینمیش عضوو "عمرناجی" بی فرانسادان سلماسا گلمیشدیر. ناجی بی سلماسلی ضیالی لارلا بیرلیکده سلماسین ایلک مدرن و آنا دیلینی ده تعلیم وئره ن مکتبی نی آچمیش مکتبین مؤدورلویونو قبول ائتمیشدیر. میرزا سعیدین آذربایجانا ائتدییی خیدمتلری اؤچون بو مکتبین آدی سلماس ضیالی لار طرفینده ن "سعیدیه" قویولدو." سعیدیه مکتبی" سلماسدا آزادلیق مدنیتین اینکیشافیندا اؤنملی رولو اوْلموشدور. اتحاد ــ ترقی جمعیتی عمرناجی نین آذربایجان دا ائتدییی مثبت فعالیت لرینده ن بو مکتوبلا سئوینجی نی بیلدیرمیشدیر:

« اوزون مکتوبونوز و اصـــیل اوْلدو . وئریلن حوادیث لر بیزی ممنون ائتدی . "ناجی بی "این مدرســـه یه مؤدور اوْلماســـی مؤناسیبتیمیزین توسّعوونه، اوّراداکی رابیطه نین تقوییه سینه حیذمت ائده جه یینی اؤمید ائده ریز[۱۹]. »

میرزا سعید خان استبدادین بیرآی باشلانماسین دان سونرا استانبولا گئتدی. استانبولدا آزادلیق هاواسی اسدیگی اؤچون اؤراسی آذربایجان لی لارین سیاسی فعالیتلرینه اویقون و ال وئریشلی بیر یئره چئوریلمیشدیر. اوْرادا هر گون "بی اوغلو" محلله سینده سیاسی میتینقلر گئچیریلیردی. میرزا سعید ایسه بو میتینق لرده آذربایجان لی لارین نؤماینده سی اوْلاراق ایشتیراک

---

[۱۵] انزلی، حسن، اورمیه در گذر زمان، اورمیه ۱۳۷۸، ص ۱۸۳ و کسروی ص۴۲۷
[۱۶] کسروی، ص۴۷۸
[۱۷] ملک زاده دیلمقانی، توحید، سلماس در سیر تاریخ آذربایجان، سلماس۱۳۷۸، ۲۲۷
[۱۸] Tevetoğlu, Fethi. Ömer Naci. İstanbul, 1992, s. 89.
[۱۹] همان،۹۹

ائدیب نطق ائده ردی. اوْ بو ایجلاس لاردا اؤزونو "آذربایجانلی" کیمی آپاریب "آذربایجان تورکجه" سیله دانیشاردی[۲۰]. ایران دان گلن باشقا خالق لار دا اؤز آنا دیللرینده نطق ائده ردیلر.

میرزا سعید فعالیت لریله اتحاد لارین تانینمیش شخصیت لرینده ن " خلیل پاشا ، یعقوب جمیل، مصطفی نجیب، عمرناجی " باشچی لیغی ایله توپلام ۳۰ نفر استانبول دان آذربایجانا گئتمک اؤچون ، طرابزونا اوْرادان دا ارضروما گئتدیلر. خلیل پاشا آذربایجلنا داخیل اوْلمادان اونجه دوْغو بلیازیددا یاشایان ائلات لیدئرلری نین امکداشلیق لارینی قازانماق اؤچون اوْ طرفلره گئتدی. قالانلار ایسه وانا گئتدیلر. نهایت مذاکیره لرده ن سونرا خلیل پاشا دا آذربایجانا گئده ن اتحادچیلارا قاتیلیدی. بیرلیکده سلماس ماحالی مرکزی دیلمانا وارد اوْلدولار[۲۱]. دیلمان دا مجاهیدلر طرفینده ن قارشیلاندیلار. سلماس دا سیلاحین آز اوْلماسینا گؤره عمرناجی نی سیلاح و فشنگ گتیرمه اؤچون تکرار وانا گؤندردیلر. اتحاد چی لار ایکی گون سلماسدا قالدیقدان سونرا ۱۹۰۹ فوریه سونلاری استبداد و آزادلیق حدودو اوْلان خویا ساری حرکت ائتدیلر. خوی اهالی سی ،سلماس و اتحاد چیلاردان ترتیب له نن اوردونو چوخ صمیمیت له قارشیلادیلار. بو اوردونون سرکرده لری ایلک اؤنجه خویا ییغیلان مجاهیدلرین حربی مشق لرایله مشغول اوْلدولار. بیر نئچه گؤن سونرا مشروطه چی لرله استبداد چی لار آراسیندا آغیر ساواش باشلادی. باشقالا والی سی ایسه آتلی لار ایله بیرلیکده بو ساواشا قاتیلدی و نهایت مشروطه چی لر غالیب گلدیلر. تأسوف کی گنج میرزا سعید سلماسی ۲۱ یاشیندا شهید اوْلدو.

سعید سلماسینین شهادتی باکی ـــ تبریز ـــ استانبول اؤچ گنینی ده رین ماتمه بؤرودو . اوْنون حاققیندا اوْنلارجا شعر و یازی یازیلدی[۲۲]. اتحادچی لاری طرفینده ن استانبولون فتحی[۲۳] ایران مشروطه چی لری نی ده تهرانی ضبط ائتمه یه تحریک ائتدی و بیلیندییی کیمی نئچه آی سونرا تهران ضبط ائدیلدی. عثمانلی مشروطه چی لر طرفینده ن استانبول ضبطی آذربایجان مطبوعاتیندا دا عکس اوْلدو.

اتحاد ـــ ترقی جمعیتی نین آذربایجان دا چالیشان باشقا بیر عضوو قارص لی آیدین پاشا و قارداشی ابراهیم پاشا ایدی. بو ایکی قارداش خوی و سلماس منطقه لرینده فعالیت ائدیردیلر. ۱۹۰۹ فوریه آیی خوی ساواشیندا یوز آتلی ایله اشتراک ائتمیش لر[۲۴]. ابراهیم پاشا داها سونرا قارص بلدیه رئیسی اولو. اونون عائیله سی ایندیلیک آنکارا و استانبولدا یاشیرلار.

---

[۲۰] دولت آبادی، یحیی، حیات یحیی، ج۳ ص:۳۸

[۲۱] Kut, Halil. Bitmeyen Savaş. İstanbul, 1972, s. 59.

[۲۲] ملک زاده ص۲۵۳

[۲۳] Akşın, Sina. Jön Türkler ve İttihat ve Terakki. İstanbul, 1987, s. 134.

[۲۴] اردوبادی، محمد سعید، دومانلی تبریز، چاپ دوم ۱۳۶۴ تهران ص ۳۹

## اتحاد ترقی جمعیتی نین آذربایجان اوغروندا آپاردیغی سیاسی فعالیت لری

تبریز، مرکزی دئولته باش ایمه یینجه شاه ، عین الدوله نی آذربایجان والی سی اوْلاراق تبریزه گؤنده ردی. اوْنون تبریز ده تؤره تدیگی جنایت لر تامام حرّ اینسانلاری اوْ جمله ده ن اتحاد چی لاری دا عکس العمله مجبور ائتدی. بو جمعیت عین الدوله یه گؤنده رییی ۶ شعبان ۱۳۲۶ ( ۳ سپتامبر ۱۹۰۸ ) تاریخلی مکتوبدا اوْنا اعتراض لارینی بیلدیرمیش و تبریزین محاصره سینده ن واز گئچمه سینی ایسته میش دیر . مکتوبون سونوندا بو چارپی جی شعر یازیلمیش دیر:

ای ستمگر اوْلما راغیب میللتین افناسینا
پادشاه سن گئت گیلن بیگانه لر داواسینا
مؤسلومان قانی مباح اوْلماز باتیرما اللرین
اوْلما چوخ مغرور شاهیم محتکیر فتواسینا
اوْتوز ایل نازین چکن شهره عجب وئردین عوض
خطه ی تبریزی دؤنده ردین بلا صحراسینا
سهل سانما ایت گیلن مظلوم قانیندان خزر
قورخ اوْ گؤنده ن کی غرق اوْلورسان سنده قان دریاسینا
واخت اوْ واخت دور کیم سنین هم اوْلسون اقبالین نگون
چونکو ظولمون چیخماسان بیر ذیرویه اعلاسینا
بیز اگر فیض شهادت درک ائده ک سیز سعی ائدین
ای بیزیم ائولادیمیز مشروطه نین اجراسینا
وئردیلر فتوا مجاهید قتلینه آل یزید
رسم دور تقلید ائده ر هرکیم اؤز مؤولاسینا

عثمانلی دا رسمی اوْلاراق مشروطیتین قبولوندان سونرا عثمانلی سفیری تبریزده استبداد مرکزی ساییلان ده وه چی محلله سینه گئدیب اوْرادا انقلاب قارشیسیندا دوران اسلامیه انجومنی باشچی لاریلا گؤروشور. اوْ بو گؤروشده اوْ انجومن ده ن مشروطه قارشی سیندا دورمامالارینی ایسته ییر[۲۵].

---

[۲۵] ویجویه،حاجی محمد باقر ، تاریخ انقلاب ذربایجان و بلوای تبریز، به کوشش علی کاتبی ، چاپ سوم، تهران ۲۵۳۵ص۶۵

تبریزین محاصیره سی دوام ائدینجه سعادت انجومنی ۲۳ سپتامبر ۱۹۰۸ ده بو آغیر وضعیتی انگلیس و آوروپا کامو اوْیونا بیلدیره ره ک اؤز ناراحاتلیغینی بیلدیردی[۲۶]. روسلار تبریزین محاصره سینی بهانه ائدیب نهایت تبریز و آذربایجانی اشغال ائتدیلر. اورمیه و تبریزده مشروطه چی لر عثمانلی کونسولوسلارینا سیغیندیلار[۲۷]. عثمانلی لار ایسه روسلارین عمللرینه اؤز اعتراض لارینی بیلدیردیلر[۲۸]. بیر نئچه واخت سونرا عثمانلی کونسولوسونا سیغینان ستارخان و باغیرخان کونسولوسو ترک ائدیب تهرانا گئتدیلر. تهران دا اتابک پارکی حادیثه سینده ستارخان یارالانیر و بیر نئچه آی سونرا وفات ائدیر. اوْنون وفاتینا اتحاد چی لار و سعادت انجومنی استانبولدا بیر یاس مراسیمی کئچیریر. استانبولون « والیده » مچیدینده کئچیریلن بو مراسیمه عثمانلی دؤلت ارکانیندان بیر چوخ آدام قاتیلدی. یاس مراسیمین رسمی اعلانی دا استانبول قزئته لرینده یاییلاندی[۲۹]. روسلارین اشغالی دوام ائدینجه یوزلرجه آذربایجانلی مملکتی ترک ائدیب سلماس یولویلا عثمانلی یا سیغیندی[۳۰]. بو آذربایجانلی لارین طالع لری فرق لی اوْلدو. بیر قیسمی بالکان ساواشلارینا قاتیلیب شهید اوْلدولار. بیر قیسمی ده بیرینجی دوْنیا حربینه قاتیلیب "چاناق قالا" ساواشیندا شهید اوْلدولار و قالانی آوروپایا گئدیب اورادا یئنی سیاسی یول آختارماغا باشلادیلار و بیر نئچه سی ده عثمانلی لارلا تکرار آذربایجانا گلیب روس ایشغالچی لارلا مبارزه آپارماغا مشغول اوْلدولار.

### اتحاد ترقی جمعیتی نین آذربایجان اؤغروندا آپاردیغی مدنی فعالیت لری

عثمانلی لارین آذربایجان مشروطه انقلابینا یاردیم لارینین باشقا جهتی ده صنعت یولویلا خالقین مشروطه ماراغینی قازاندیرماق اوْلموشدور. بو ایشلرده ن بیریسی، تیاترو قروبلارین آذربایجان و تهرانا گؤنده رمه سی ایدی. گرچه باکی و تیفلیس ده ن گلن صنعت قروبلاری عثمانلی لاردان داها اکتیو گؤرونوردو[۳۱] آما عثمانلی لار" نامیق کامال " ین « زواللی چوجوق » و « آلدانمیش آداخلی » آدلی پئیس لرینی مکرر نومایشیه قویماغا موفق اوْلدولار. نامیق کمالین مشهور نمایشی" وطن" یا خود "سیلیستره" ده تهران دا لاله زار خیاواننیدا اوْلان تیاترو لاردا نومایشه قویولموشدو[۳۲]. بو پئیس لر " ح . ملک زاده تبریزی" داها سونرا "حسن خان ارفع" آدینی آلان طرفینده ن ترجمه اوْلموشدور : نامیق کامالین شعرلری ده خالقین دیلینده ایدی:[۳۳]

آمالیمیز افکاریمیز اقبال وطن دیر

---

[۲۶] معاصر ص ۸۲۱

[۲۷] کاویانپور، احمد، تاریخ اورمیه، اورمیه ۱۳۷۸، ص ۲۵۸و امیر خیزی ص۱۵۴

[۲۸] Ağaoğlu, Ahmet. İran İnkılabı. İstanbul, Akşam matbaası, s. 26.

[۲۹] امیرخیزی ، ۵۱۸

[۳۰] براون، ادوارد، نامه هایی از تبریز ، ترجمه حسن جوادی، تهران ۱۳۶۳، ص ۱۵۴

[۳۱] رسول زاده، م.ا.، گزارشهایی از انقلاب مشروطیت در ایران، ترجمه احیم رئیس نیا، چاپ اولتهران ۱۳۷۲، ص ۹۸

[۳۲] آذین پور، ادبیات نمایشی در ایران، ۲نجی جیلد، ص۵۰

[۳۳] کسروی ص ۲۱۶

سرحدیمیز قلعه بیزیم خاک وطن دیر

دعوا گونو یئکسر گؤرونون قانلی کفن دیر

ایرانلی لاریخ جان وئره ریخ نام آلاریخ بیز

داوادا شهادتله هامی کام آلاریخ بیز

گؤروندویو کیمی بو شعرلرده عثمانلی لاریخ یئرینه ایرانلی لاروق یازیلمیشدیر.

عثمانلی لارین آذربایجان مشروطه انقلابینا یاردیم لاری استانبول دا نومایشه قویولان تیاترولارلا دا دوام ائتدی[۳۴]. "اشرف " آدلی شاعیر ده اؤز شعرلرایله آذربایجان مشروطه انقلابینا یاردیم ائدیردی. بو مجموعه استانبول دا چاپ اوْلدو. شبهه سیز بو کامپانیالار سعادت انجومنی و اتحاد ترقی جمعیتی طرفینده ن برپا اوْلموشدور.

## نتیجه

اتحاد ترقی جمعیتی نین ۱۹۰۵ لرده ن باشلانان آذربایجان اکتیو سیاستی منطقه ده تورکچولوک تفکرونون آرتیشینا سبب اوْلدور. بو آرتیش نتیجه سینده آذربایجانین گرچک تورک کیملیگی اورتایا قویولموشدور. بیرینجی دؤنیا حربینده اتحاد چی لارین یؤنتیمینده عثمانلی دؤولتی آذربایجلنا داخیل اوْلدو. بو سفر مشروطه انقلابیندا لله گلن تجروبه اونلار اوچون فلیدالی اوْلدو. معاصیر آذربایجان سیاسی تابلوسوندا آدی چوخ آز دییلن تورکچو اتحاد اسلام تفکورو اورتایا گلدی. اتحاد اسلام چی لارین چابالاریلا آذربایجاندا تورکجه قزئته لر و مکتب لر آچیلدی. ۱۹۲۵ ه قده ر آذربایجانلی لارین سمپاتی سینی قازانان بو دوشونجه طرزی آذربایجانین تورک سیستملی اوْلدغونو قبول ائریردی و اوْنون دوام ائتمه سینی ایسته ییردی . ۱۹۲۵ ده تورک قاجار دولتی آرادان گئتمه سیله و پهلوی فارسی سیستمی نین اورتایا رسماً گلیشیله بو تفکور طرزی اورتادان قالدیریلدی . بو موضوعون دتایلی آنالیزینی سونراکی مقاله لره بیراخیریق.

---

[۳۴] اعلان متنی بئله دیر آذربایجان قومپانیه سی ایله عثمانلی درام قومپانیه سی طرفینده ن
مسامره فوق العاده
شیمدی یه قده ر هئچ گورولمه دیک بیر صورت ده یئنگی بیر طرزده
ایران انقلاب کبیری
ممثل شهیر صفا بیک عصمت فخری بیک
اسناد روابط ایران و عثمانی ج۷، ص۳۴۷

# Bakı, Təbriz, İstanbul üçbucağında fəaliyyət göstərən Osmanlı İttihad və Tərəqqi Cəmiyyəti və Azərbaycan Məşrutə İnqilabı (1905-1909) əlaqələri

Dr. Tohid Məlikzadə[35]
tohidmelikzade@yahoo.com

XX əsrin başlarından etibarən Orta Şərq siyasi qütblərində dərin siyasi, ictimai və mədəni çalxantıların baş verməsilə bu coğrafiyada yaşayan xalqlarin taleləri də dəyişməyə başladı. Bu xalqların yeni düşüncələr axınında yüksələn harayları zincir kimi xalqdan-xalqa dolaşıb azadlıq nəğmələrini bir-birlərinə çatdırmağı bacardılar. 1905-ci ildən etibarən Rusiyada baş verən azadlıq hərəkatı bu azadlıq hərəkatının başlanğıcı sayılır. Daha sonra Qacar və Osmanlılara sıçrayan bu azadlıq hərəkatı hakim gücün sonsuz quvvələrinə sərhəd gətirib məmləkəti idarə etməkdə xalqin da iştirak etməsi istiqamətində hərəkət etdi.

Azərbaycan isə Rusiya və Osmanlı ilə qonşu olduğu üçün bu siyasi və ictimai çalxantılardan kənarda qalmadı. Bakı, Tiflis və Osmanlı ilə sıx əlaqədə olan cənublu elit və tacir təbəqə azərbaycanlılara o məmləkətlərdən sosialist və türkçü İttihad-Tərəqqi cəmiyyəti fikrini getirdilər.

## Osmanlıda azərbaycanlıların məskunlaşma tarixi və Səadət əncüməni

Osmanlıda azərbaycanlıların məskunlaşması və orada yaşamaları çox qədim dövrə gedib çıxır. 16-cı əsrin başlarından etibarən Sultan Səlim tərəfindən Təbrizin işğalı nəticəsində bir çox azərbaycanlı sənətkar Osmanlıya köçürüldü. Daha sonra Qacar-Osmanlı əlaqələri yaxşılaşdığı vaxt ticarəti çox sevən və onunla maraqlanan azərbaycanlılar Qərb darvazası sayılan İstanbula gedib çıxdılar. 1900-cu illərə gəlindiyi vaxt İstanbulda yaşayan azərbaycanlıların sayısı on mini aşmışdı[36]. Bu azərbaycanlılar ticarətlə birlikdə Azərbaycanın vəziyyəti ilə də maraqlanırdılar. O zamanlar, azərbaycanlılar Osmanlıda baş verən siyasi azadlıqlardan yararlanaraq Qacar memaleke mehrusesi və ana yurdları Azərbaycanla bağlı, iclaslar da keçirirdilər. Zaman irəllədikcə onlar, fəaliyyətlərini nizama salmaq üçün Osmanlıda fikirdaşlarını bir yerə yığaraq ocaqlar qurub ana vətənlərinə xidmətdən heç nə əsirgəmədilər.

---

۱- Urmiyə Azad Universiteti

۳۶ تقی زاده . سید حسن . تاریخ انقلاب مشروطیت ایران .انتشارات فردوس تهران ۱۳۷۹ ص: ۲۲۲ Sasani Azərbaycanlıların nufusunu 16000 nəfər qeyd edir. خان ملک ساسانی . یادبودهای سفارت استانبول . انتشارات بابک ۱۳۵۴ تهران ص: ۹۴

İstanbulda yaşayan azərbaycanlıların qurduğu ocaq Səadət əncüməni adlanırdı. Qaynaqlara görə bu əncümənin qadınlar şöbəsi də fəaliyyət göstərirdi[37]. Çox sistemli çalışan bu əncümənlər Azərbaycanın sıxıntılı günlərində xalqımızın pis vəziyyətini dünya medyasına çatdırmağa müvəffəq oldular [38]. Səadət əncüməni özünü Avropada Azərbaycan Əyalət əncümən nümayəndəsi, eləcə də münhəl olmuş İran Parlementi olaraq aparırdı. Bilindiyi kimi Tehranda parlamentin topa bağlanıldığından sonra Azərbaycan Əyalət Əncüməni özünü müvəqqəti "Azərbaycan dövləti" olaraq elan etmişdi [39]. Bu Əncümənin fəaliyyətləri ilə İstanbulda azərbaycanlılar üçün maliyə kampaniyaları da tərtib edilirdi və toplanan gəlirlər Təbrizə göndərilirdi [40]. Qeyd etmək lazimdir ki, İranın içindən yalnız ərəb lideri Şeyx Xəzəl azərbaycanlılara maddi kömək etmişdir [41].

Sonralar Azərbaycanın vəziyyəti gərginləşdiyi vaxt Səadət əncümənini yeni tərtibata salmaq məqsədi ilə Nəcəf alimləri azərbaycanlı Hacı **Şeyx Əsədullah Mamağanini** Səadət əncüməninə sədr olaraq göndərdilər [42]. O 26 şəvval 1326-cı ildə (21 oktyabr 1908-ci il) İstanbula gəlib çatdı.

**Səadət əncüməni və İttihad-Tərəqqi Cəmiyyəti ilə əməkdaşlıqları**

Səadət əncüməni Osmanlıda daha sonra iqtidara gələn, amma o zaman gizlincə fəaliyyət göstərən türkçülüyü və müasirləşməni hədəfləyən İttihad-Tərəqqi Cəmiyyəti ilə də yaxından əlaqə saxlamışdı. Bu isə Osmanlı ziyalılarının Osmanlı xaricində yaşayan türklərin fərqinə varmalarına səbəb olmuşdur[43]. Daha öncə azərbaycanlılara "əcəm" deyə xitab edən Osmanlı ziyalıları bu səfər onlara "türk qardaş"larımız olaraq xitab edirdilər. Bu isti münasibət isə iki qardaş xalqın daha da yaxınlaşmasına səbəb oldu. Nəticədə Osmanlı İttihad-Tərəqqi Cəmiyyəti Azərbaycanda baş verən hadisələrlə daha artıq maraqlanmağa başladı. 1 şəban 1325-ci ildə (9 sentyabr 1907-ci il) Təbrizdə çap olan "Əncümən" qəzeti bu cəmiyyətin Azərbaycan xalq hərəkatına dair müsbət münasibətlərini və hətta himayə bəyannaməsini nəşr etdi[44]. Daha sonra

---

۳۷- آفاری، زانت ، انجمن های نیمه سری زنان در نهضت مشروطیت، ترجمه دکتر جواد یوسفیان، تهران ۱۳۷۷ ص،: ۲۵

۳۸- روزنامه ناله ملت . نمره ۳۹ . ۲۰ محرم ۱۳۲۷. ص: ۴

۳۹ -آبراهامیان | یرواند . ایران بین دو انقلاب ، ترجمه احمد گل محمدی و محمد ابراهیم فتاحی ، نشر نی تهران ۱۳۷۷ ص: ۱۲۳

۴۰- امیر خیزی، اسماعیل ، قیام آذربایجان و ستار خان ،انتشارات اگاه تهران ۱۳۷۹ ص: ۱۹۲

۴۱- کسروی، ص: ۷۹۶

۴۲ - Eyni qaynaq s. 194.

۴۳ - Swietochowski, Tadeusz. Müslüman Cemaatten Ulusal Kiımliğe Rus Azerbaycan'ı (1905- 1920). İstanbul, 1988, s. 103.

۴۴- انجمن ، سای ۱۳۱ ، اول شعبان ۱۳۲۵ و ناله ملت گونده لیگی سای ۱۹-۲ رمضان ۱۳۲۶ ص:۳

bu cəmiyyət **Səttarxan** və sair mucahidlərə iftixar medalı göndərdi. Bu iş rusları narahat etmişdi[45]. Sankt-Peterburqdan gələn bir məktuba görə ruslar iddia etmişlər ki, İttihadçılar azərbaycanlıları rus əleyhinə təhrik etməklə məşğuldurlar[46]. Rusların şiddətli etirazı nəticəsində Osmanlı dövləti İttihadçıların Azərbaycana hər cür müdaxiləsini rədd etdi. Osmanlıların 26 noyabr 1908-ci ildə rəsmi elan etdiyi bəyannaməsində **Səttarxan**a verilən medalın Səadət Əncüməni tərəfindən göndərilməsini bildirdi[47]. Bu isə bu iki quruluşun sıx əlaqələrindən xəbər verirdi.

İstanbulda Səadət Əncüməni İttihadçılarla birlikdə istibdada xeyir demek məqsədi ilə İran səfirliyi qarşısında nümayiş və mitinqlər də keçirdilər[48].

İttihadçıların yardımı ilə İstanbulda çap olan "**Sabah"** qəzeti Azərbaycan hərəkatından daim yazılar yazaraq Təbriz qarətzədələrə kömək kampaniyası tərtib etmişdi. Azərbaycan əncümən organı sayılan "**Əncümən"** isə xalqın psixologiyasını yüksətmək üçün bu xəbərləri davamlı çap etməklə məşğul idi[49].

### Azərbaycanlı Səid Salmasi və İttihad-Tərəqqi cəmiyyəti

1907-ci illərdən etibarən Osmanlılar, Qacarlarla sərhəd müqaviləsi nəticəsində Azərbaycanın qərb məntəqələrini işğal edilmişdi. Çox yayılmış bir fikirə görə, Qacar və Osmanlı sultanları azərbaycanlıları azadlıqdan imtina etmələri üçün təzyiq altında qoymaq fikrindəydilər[50]. Gizli olaraq fəaliyyət göstərən İttihad-Tərəqqi cəmiyyəti Parisdən səsləndirdiyi bir bəyannamədə Osmanlı dövlətinin Azərbaycanı işğal etməsinə görə öz narahatlığını bildirmişdi[51].

Sərhədi işğal edən Osmanlı ordusu içində təsadüfi olaraq İttihadçıların yüksək rütbəli zabitləri, o cümlədən Ənvər Paşanın əmisi Xəlil Paşa da var idi. Beləliklə, o Azərbaycanın vəziyyəti ilə yaxından tanış olmuşdu. Xəlil Paşa ilə sıx əlaqədə olan azərbaycanlı şəxs Mirzə Səid Salmasi idi[52].

---

۴۵- معاصر، حسن، تاریخ استقرار مشروطیت در ایران مستخرجه از روی اسناد وزارت امور خارجه انگلستان ،تهران ۱۳۴۶ ص: ۹۱۰

۴۶ - Eyni qaynaq s. 906.

6- Eynı qaynaq s. 912.

۴۸ - Eyni qaynaq s. 773.

۴۹- انجمن، سای ۳۵، ۲۰ ذی الحجه ۱۳۲۶، ص، ۴ و امیر خیزی ص : ۲۸۵

۵۰- انزلی، حسن، اورمیه در گذر زمان ، اورمیه ۱۳۷۸ ، ص: ۱۸۳ و کسروی ص: ۴۲۷

۵۱- کسروی : ص:۴۷۸

۵۲- ملک زاده دیلمقانی، توحید ، سلماس در سیر تاریخ آذربایجان ، سلماس ۱۳۷۸ ص: ۲۲۷

Bakı, Təbriz, İstanbul üçbucağında fəaliyyət göstərən Mirzə Səid Salmasi Cənubı Azərbaycanın Salmas şəhərində anadan olmuşdur. Varlı bir ailənin övladı olan Ağabala daha sonra Səid adını seçmişdir. Gənc çağlarında Bakı, Tiflis, İstanbul və Rusiyaya səfər etmişdir. Bu səfərlərdə azadlıq nəğmələrini dərindən hiss etmiş və bir inqilabçı kimi vətənə dönmüşdür. 19 yaşında rəsmən İttihad-Tərəqqi cəmiyyəti üzvü olmuşdur[53]. Səid Salmasinin xahişinə görə İttihadçıların tanınmış üzvü Ömər Naci bəy Fransadan Salmasa gəlmişdir. Naci bəy Salmaslı ziyalılarla birlikdə Salmasın ilk modern və ana dilini də təlim verən məktəbini açmış və müdürlüyünu qəbul etmişdir. Mirzə Səidin Azərbaycana etdiyi xidmətləri üçün bu məktəbin adı Salmas ziyalıları tərəfindən **Səidiyyə** qoyuldu. Səidiyyə məktəbinin Salamasda mədəniyyətin inkişafında önəmli rolu olmuştur. İttihad-Tərəqqi cəmiyyəti Ömər Nacinin Azərbaycanda göstərdiyi müsbət fəaliyətləri haqqında bu məktubla sevincini bildirmişdir:
"Uzun mektubunuz vasil oldu. Verilen hevadisler bizi memnun etti. Naci beyin medreseye müdür olması münasibatımızın tevessülüne, oradaki rabitanın takviyesine hizmet edeceğini ümid ederiz"[54].

Mirzə Səid xan istibdad başlanandan bir ay sonra İstanbula getdi. İstanbulda azadlıq havası əsdiyi üçün ora azərbaycanlıların siyasi fəaliyyətlərinə uyğun bir yerə çevrilmişdi. Orada hər gün Bəyoğlu məhəlləsində siyasi mitinqlər keçirilirdi. Mirzə Səid isə bu mitinqlərdə azərbaycanlıların nümayəndəsi olaraq iştirak edib nitq söylərdi. O bu iclaslarda özünü azərbaycanlı kimi aparıb Azərbaycan türkçəsi ilə danışardı[55]. İrandan gələn başqa xalqlar da öz ana dillərində çıxış edirdilər.

Mirzə Səid fəaliyyətləri ilə İttihadçıların tanınmış şəxsiyyətlərindən Xəlil Paşa, Yakup Cemil, Mustafa Necip, Ömər Naci başçılığı ilə cəmi 30 nəfər İstanbuldan Azərbaycana getmək üçün, Trabzona oradan da Ərzruma gedirlər. Xəlil Paşa Azərbaycana daxil olmadan Doğu Bəyazıtda yaşayan Elat liderlərinin əməkdaşlıqlarını qazanmaq üçün o tərəflərə getdi. Qalanlar isə Vana getdilər. Nəhayət, müzakirələrdən sonra Xəlil Paşa da onlara qatılıb birlikdə Salmas mahalının mərkəzi Dilmana varid oldular[56]. Dilmanda mücahidlər tərərfindən qarşılandılar. Salmasda silahın az olmasına görə Ömər Naci silah və fişəng gətirmək üçün təkrar Vana göndərildi.

---

۵۳Tevetoğlu, Fethi. Ömer Naci. İstanbul, 1992, s. 89.

۱- Tevetoğlu, s. 99.

۵۵ - دولت آبادی، یحیی ، حیات یحیی ، ج ۳، ص: ۳۸

3- Kut, Halil. Bitmeyen Savaş. İstanbul, 1972, s. 59.

İttihadçılar iki gün Salmasda qaldıqdan sonra 1909-cu il fevralın sonları istibdad və azadlıq hududu olan Xoya sarı hərərkət etdilər. Xoy əhalisi Salmas və İttihadçılardan ibarət ordunu çox səmimiyyətlə qarşıladılar. Bu ordunun sərkərdələri ilk öncə Xoya yığılan mücahitlərin hərbi məşqləri ilə məşğul oldular. Bir neçə gün sonra məşrutəçilərlə, istibdadçılar arasında ağır savaş başladı. Başqala valisi isə atlıları ilə birlikdə bu savaşa qatıldı və nəhayət məşrutəçilər qalib gəldilər. Təəssüf ki, gənc Mirzə Səid Salmasi 21 yaşında şəhid oldu.

Səid Salmsinin şəhadəti Bakı-Təbriz-İstanbul üçbucağını dərin matəmə bürüdü. Onun haqqında onlarca şeir və yazi yazıldı[57]. İstanbulun İttihadçılar tərəfindən fəthi[58] məşrutəçiləri də Tehranı almağa təhrik etdi və bilindiyi kimi neçə ay sonra Tehran da zəbt edildi. Osmanlı məşrutəçiləri tərəfindən İstanbulun zəbti, Azərbaycan mətbuatında da əks olundu.

İttihad-Tərəqqi cəmiyyətinin Azərbaycanda çalışan başqa bir üzvü Qarslı Aydın Paşa və qardaşı İbrahim Paşa idi. Bu iki qardaş Xoy və Salmas məntəqələrində fəaliyyət göstərirdilər.1909-cu il fevral ayı Xoy savaşında 100 atlı ilə iştirak etmişlər[59].

**İttihad-Tərəqqi cəmiyyətinin Azərbaycan uğrunda apardığı siyasi fəaliyyətləri**

Təbriz mərkəzi dövlətə baş əyməyincə şah **Eynoddol**əni Azərbaycana vali olaraq göndərdi. Onun Təbrizdə törətdiyi cinayətlər tamam azad insanları, o cümlədən İttihadçıları da cavab verməyə məcbur etdi. Bu cəmiyyət Eynoddoləyə göndərdiyi 6 Şaban 1326-cı il (3 sentyabr 1908-ci il) tarixli məktubda etirazlarını bildirmiş və Təbrizin mühasirəsindən vaz keçməsini istəmişdir. Məktubun sonunda bu təsirli şeir yazılmışdır:

Ey sitəmgər olma rağib millətin ifnasına,
Padişəh, sən getgilən biganələr davasına.

Müslümün qanı mubah olmaz batırma əllərin,
Olma çox məğrur şahım, möhtəkir fətvasına.

Otuz il nazın çəkən şəhrə əcəb verdin əvəz,
Xitteye Təbrizi döndərdin bəla səhrasına.

Səhl sanma, it gilən məzlum qanından xəzər,

---

۵۷ ملک زاده، ص: ۲۴۳

۲ -Akşin, Sina. Jön Türkler ve İttihat ve Terakki. İstanbul, 1987, s. 134.

۵۹ اردوبادی، محمد سعید، دومانلی تبریز ،چاپ دوم ۱۳۶۴ تهران ،ص: ۳۹

Qorx o gündən ki, qərq olursan səndə qan dəryasına.

Vaxt o vaxtdur kim sənin həm olsun iqbalın negun,
Çünki zülmün çıxmısan bir zirvəyi əlasına.

Biz əgər feyzə şəhadət dərk edək siz səy edin,
Ey bizim övladımız məşrutənin icrasına.

Verdilər fətva mucahid qətlinə al-e-yəzid,
Rəsmdür təqlid edər, hər kim, öz mövlasına.

Osmanlıda rəsmi olaraq məşrutiyyət qəbul olunduqdan sonra Osmanlı səfiri Təbrizdə istibdad mərkəzi sayılan Dəvəçi məhəlləsinə gedib orada inqilab qarşısında duran İslamiyyə əncüməni başçılarıyla görüşür. O bu görüşdə əncümədən məşrutə qarşısında durmamalarını istəyir [60]. Təbrizin mühasirəsi davam edincə Səadət əncüməni 23 sentiyabr 1908-ci ildə bu ağır vəziyyəti ingilis və Avropa cəmiyyətinə bildirərərk öz narahatlığını ifadə etdi [61]. Ruslar Təbrizin mühasirəsini bəhanə edip nihayət Təbriz və Azərbaycanı işğal etdilər. Urmiyə və Təbrizdə məşrutəçilər Osmanlı konsulluqlarına sığındılar [62]. Osmanlılar isə rusların əməllərinə öz etirazlarını bildirdilər [63]. Bir neçə vaxt sonra Osmanlı konsulluğuna sığınan Səttarxan və Bağırxan buranı tərk edib Tehrana getdilər. Tehranda Atabəy parkı hadisəsində Səttarxan yaralanır və bir neçə ay sonra vəfat edir. Onun vəfatına İttihadçılar və Səadət əncüməni İstanbulda bir yas mərasimi keçirir. İstanbulun **Validə** məsçidində keçirilən bu mərasimə Osmanlı dövlət ərkanından bir çox adam qatıldı. Yas mərasiminin rəsmi elanı da İstanbul qəzetlərində yayınlandı[64]. Rusların işğalı davam edincə yüzlərlə azərbaycanlı məmləkəti tərk edib Salmas yolu ilə Osmanlıya sığındı[65]. Bu azərbaycanlıların taleləri fərqli oldu. Bir qismi Balkan savaşlarına qatılıb şəhid oldu, bir qismi isə I Dünya hərbinə qatılıb Çanaqqala savaşında şəhid oldu. Qalanları isə ya Avropaya gedib orada yeni siyasi yol tapdılar, ya da bir neçəsi Osmanlılarla təkrar Azərbaycana gəlib rus işğalçılarla mubarizə aparmaqla məşğul oldular.

---

۶۰- ویجویه، حاجی محمد باقر ، تاریخ انقلاب آذربایجان و بلوای تبریز ، به کوشش علی کاتبی ، چاپ سوم تهران ۲۵۳۵ ص: ۶۵

۶۱ معاصر، ص: ۸۲۱

۶۲ کاویانپور، احمد، تاریخ اورمیه ، اورمیه ۱۳۷۸ ص: ۲۵۸ و امیرخیزی ص: ۳۳۸

۴ Ağaoğlu, Ahmet. İran İnkılabı. İstanbul, Akşam matbaası, s. 26.

۶۴ ، ص: 518 امیرخیزی

۶۵ براون، ادوارد ، نامه هایی از تبریز ، ترجمه حسن جوادی ، تهران ۱۳۶۳ ص: ۱۵۴

**İttihad-Tərəqqi cəmiyyətinin Azərbaycan uğrunda apardığı mədəni fəaliyyətləri**

Osmanlıların Azərbaycan məşrutə inqilabına köməklərinin başqa cəhəti də sənət yolu ilə xalqın məşrutəyə marağını qazandırmaq olmuşdur. Bu işlərdən biri teatr qruplarının Azərbaycan və Tehrana göndərilməsi idi. Gərçi Bakı və Tiflisdən gələn sənət qrupları Osmanlılardan daha aktiv görünürdü[66], amma Osmanlılar Namiq Kamalın "**Zavallı çocuk**" və "**Aldanmış adaxlı**" adlı pyeslərini mükərrər olaraq numayişə qoymağa müvəffəq oldular. Namiq Kemalın məşhur nümayişi "**Vətən,** yaxud **Silistrə**" də Tehranda Laləzar xiyabanında olan teatrlarda tamaşaya qoyulmuşdur[67]. Bu pyeslər H.Məlikzadə Təbrizi (daha sonra Həsən xan Ərfə adını almışdır) tərəfindən tərcümə olmuşdur.

Namiq Kemalın şeirləri də xalqın dilindəydi[68]:

Amalımız əfkarımız iqbal-i vətəndir,
Sərhəddimizə qəl"ə bizim xak-i vətəndir.
Dəva günü yeksər görünən qanlı kəfəndir,
İranlılarux can verərux nam alarux biz!
Davadə şəhadətlə hamı kam alarux biz!

Göründüyü kimi bu şeirdə "Osmnlılarux" yerinə "İranlılarux" yazılmışdır.

Osmanlıların Azərbaycan məşrutə inqilabına yardımları İstanbulda nümayişə qoyulan teatrlarla da davam edirdi[69]. Əşrəf adlı şair də öz şeirləri ilə Azərbaycan məşrutiyyət inqılabına yardım edirdi. Bu məcmuə İstanbulda çap oldu. Şübhəsiz bu kampaniyalar Səadət əncüməni və İttihad-Tərəqqi cəmiyyəti tərəfindən təşkil olmuşdur.

---

[۶۶] رسول زاده ، م.ا. گزارشهایی از انقلاب مشروطیت در ایران ، ترجمه: رحیم رئیس نیا چاپ اول، تهران ۱۳۷۷ ص: ۹۸
Şimali Azərbaycandan gələn teatr qrupları şəhid ailələrinə yardım etmək üçün türkcə və rusca olaraq Sultanməcid Qənizadənin "Dursunəli və Ballıbadı" adlı tamaşasını icra etmişlər.

[۶۷] آذین پور، ادبیات نمایشی در ایران ، جلد دو ص: ۵۰

[۶۸] کسروی ، ص: ۲۱۶

۳-Elan mətni belədir:

آذربایجان قومپانیه سی ایله عثمان لی درام قومپانیه سی طرفیند ن
مسامره فوق العاده
شیمدی یه قده ر هیچ کورولمه دک بیر صورتده یکی بیر طرزده
ایران انقلاب کبیری
ممثل شهیر صفا بک عصمت فخری بیک
( اسناد روابط ایران و عثمانی ج ۷، ص: ۳۴۷ )

## Nəticə

İitihad -Tərəqqi cəmiyyətinin 1905-ci illərdən başlanan Azərbaycan aktiv siyasəti regionda türkçülük təfəkkürünun artışına səbəb oldu. Bu artış nəticəsində Azərbaycanın gerçək türk kimliyi ortaya qoyulmuşdur. I Dünya hərbində İttihatçıların idarəsində Osmanlı dövləti Azərbaycana daxil oldu. Bu səfərdə Məşrutiyyət inqilabında yaşanan təcübələr faydalı oldu. Müasir Azərbaycan siyasi tablosunda adı çox az bilinən türkçü İttihad-e İslam təfəkkürü ortaya çıxdı. İttihad-e İslamçıların cəhdləri ilə Azərbaycanda türk dilində qəzetlər və məktəblər açıldı. 1925-ci ilə qədər azərbaycanlıların rəğbətini qazanan bu düşüncə tərzi, Azərbaycanın türk sistemli olduğunu qəbul edirdi və onun davam etməsini istəyirdi. 1925-ci ildə Türk Qacar dövlətinin aradan çıxması və Pəhləvi fars sisteminin rəsmən meydana gəlməsi ilə bu təfəkkür tərzi ortadan qaldırıldı. Bu müvzunun geniş analizini sonrakı məqalələrə buraxırıq.